# NDU-nun rektoru təhsil aldığı məktəbdə nümunəvi dərs keçib



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev orta təhsil aldığı məktəbdə nümunəvi dərs keçib. Rektor qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 mart 2015-ci il tarixli Sərəncamına əsasən, ümumtəhsil məktəblərində ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəsi və elmi adı olan alimlərinin iştirakı ilə nümunəvi dərslər təşkil edilir. Bildirilib ki, hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqələr genişlənərək qarşılıqlı əməkdaşlıq möhkəmlənib. Təsdiq olunmuş xüsusi qrafik üzrə 2021-2022-ci tədris ilində 167 müəllimin nümunəvi dərsi keçirilib. Müəllimlərin dərs zamanı çəkilən kiçik həcmli video və fotoları universitetin rəsmi sosial şəbəkələri üzərindən paylaşılıb. Həmçinin, bəzi dərslərin universitet televiziyası tərəfindən çəkilişi də həyata keçirilib.

Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin XI sinif şagirdlərinin iştirak etdiyi dərs öz fərqliliyi ilə seçilib. Rektor 44 gündə qazandığımız Zəfər tariximiz haqda danışaraq şagirdlərə vətənini sevməyi, şəhidlərimizin xatirəsini hər zaman əziz tutmağı tövsiyə edib.

Elbrus İsayev ali təhsil ocağının maddi-texniki bazası, müasir tədris metodları haqda məlumat verib. Bildirilib ki, Naxçıvan Dövlət Universiteti son illər ən yüksək inkişaf mərhələsinə çatıb. Bir çox beynəlxalq layihələrdə uğurla təmsil olunan universitetdə yeni yaradılacaq texnopark layihəsi barədə ətraflı məlumat verilib. Rektor “Times Higher Education” (THE World University Rankings 2022) versiyası əsasında aparılan reytinq üzrə dünyanın ən yaxşı universitetləri sırasında Naxçıvan Dövlət Universitetinin seçildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, yüksək bal toplayan abituriyentlərin əksəriyyəti məhz bu ali təhsil ocağını seçir. Abituriyentlərə peşə seçimində xüsusi olaraq diqqətli olmalarını məsləhət görən Elbrus İsayev müasir dövrün tələblərinə cavab verən ixtisaslara üstünlük vermələrini tövsiyə edib. Diqqətə çatdırılıb ki, bu gün hər kəs informasiya-kommunikasiya texnologiyalarına bələd olmalı, müasir dövrün çağırışlarına uyğun elmi biliklərini artırmalıdır.

Dərsdə iştirak edən şagirdlərə universitetin tanıtım bukletləri təqdim olunub.

Qarşılıqlı sual-cavab şəklində keçirilən dərsdə şagirdləri maraqlandıran məsələlərə aydınlıq gətirilib.

Qeyd edək ki, Elbrus İsayev əmək fəaliyyətinə məzunu olduğu orta məktəbdə 2000-2005-ci illərdə tarix müəllimi kimi başlayıb.

Azərbayacan müəllimi.- 2021.- 24 dekabr.- S.11.